# İKİ ƏSRLİK ERMƏNİ YALANLARI, 44 GÜNLÜK AZƏRBAYCAN HƏQİQƏTLƏRİ

Rus çarı I Pyotrun məlum vəsiyyətnaməsində ermənilərin Qafqazda, Azərbaycan ərazisində hansı məqsədlə, nə səbəbə məskunlaşdırmaq planları heç kəsə sirr deyildir. Səbəb imperiyaya nökərçilik, torpağında yaşadığı, çörəyini yediyi xalqa, dövlətə xəyanətdir. Amma faciə bundadır ki, ermənilər bir xalq olaraq bu çirkin, əcayib missiyanı xristian həmrəyliyi, qeyri-müsəlmanlara, "sədaqət" aktı kimi qəbul etmiş, bu yalana həm özlərini, həm də az qala bütün dünya xalqlarını inandıra bilmişdilər.

Odur ki, bu xalqı yaxından tanımaqdan ötrü təbliğatçılarına, daha dəqiq desək, ziyalılarına hövsələ ilə, axıradək qulaq asmaq gərəkdir. Dəyərlərin qarışdırılması, xəyanətin, satqınlığın, cinayətin, "sədaqət" kimi təqdim və təqdir olunması heyrət və dəhşət doğurur. Heç kəsə sirr deyildir, adi hüquqi qaydadır ki, etnik mənsubiyyətindən asılı olmayaraq ölkə müharibəyə cəlb olunduqda hamı yumruq kimi birləşərək qarşı tərəflə hərbə qoşulur, vətəndaş, yurddaş olaraq borcunu yerinə yetirir. Belə bir yanaşma, təbii ki, ölkəsinə sədaqətdir. Amma erməniyə, erməni ziyalısına görə əksinədir. Bir misal.

Tanınmış erməni ziyalısı, kinoregissor Karen Şahnazaryan Rusiyanın məlum kanalında, "60 dəqiqə" verilişində qonaq olarkən çıxışına ermənilərə xas saxta aristokratiya ilə başlayaraq erməni kimliyini ortaya qoyması buna əyani sübutdur. Əslən Bakıdan olan, Azərbaycanın suyu, çörəyi ilə böyüyən bu, "ziyalıya" görə 1915-ci ildə Türkiyə-Rusiya müharibəsi zamanı orada yaşayan ermənilər türklərlə vuruşan ruslara tüfəng qaldırmamış, əksinə, gülləni Türkiyəyə qarşı çevirdiyindən Rusiya bu, "xidməti", bu, "sədaqəti" unutmamalı, erməni tərəfindən vuruşmalıdır. Yaşadığı ölkəyə, onun qanunlarına xəyanət edən bir qövmü necə dəyərləndirməliyik? Bundan böyük xəyanət olarmı?! Yalnız dəyərləri qarışdıran, xislətində ermənilik olan Karen Şahnazaryan kimi erməni "ziyalıları" bu dəhşətli xəyanətə, "sədaqət" deyə bilərlər. Odur ki, düşünürəm ki, ermənilərin faciəsi ondadır ki, ziyalısı erməni olanda, ermənilik virusuna yoluxanda (Nə qədər misal çəkmək olar!) ona, bu millətə, heç bir vaksin (danışıq) kar etməz! Bir yol qalır!

Həmin yol barədə danışmaq istəyirəm. Əvvəlcə onu deyim ki, Azərbaycanı, azərbaycanlıları ona görə tərifləmirəm ki, mən azərbaycanlıyam, Azərbaycan mənim Vətənimdir! Azərbaycanı, azərbaycanlıları ona görə tərifləyirəm ki, mənim köküm var, haqqa, ədalətə, xeyirxahlığa, insanlığa köklənən, şərə, ədavətə qarşı olan mərd, qəhrəman xalqım var, saf xislətim var!

Ulu, "Avesta"nın Şərə, Yalana qarşı qalib ideyaları, Dədəm Qorqudun müdrik deyimlərilə, Ulu Tanrının səmavi kitabıyla xəmirim yoğrulubdur. Oğul atadan görməyincə, süfrə açmaz", qız anadan görməyincə, öyüd almaz" hikmətləri genetik varlığımızda öz kodunu bərqərar etmişdir. Tanıdıq, tanımadıq.., hamıya, hər kəsə süfrəmiz açıq olubdur. Amma... amma Dədəm Qorqudun daha bir tarixi, müdrik deyim-qənaəti də vardır ki, etiraf edək ki, bir çox hallarda bunu unutmuşuq, yaxud unutdurmağa çalışmışlar: "QARI DÜŞMƏN DOST OLMAZ!"

Etdikləri azğınlıqlara, xəyanətlərə görə burunları ovulsa da, bir müddətdən sonra yenidən, əvvəlkindən daha dəhşətli əməllər törətməkdən çəkinməmişlər. Axı nə qədər olar?! Dünyada, haylardan" başqa millət tanımayan, körpəsinin qulağına, türk sənin düşmənindir", - deyən iblis xislətli qövmdən başqa nə gözləmək olar?!

Bu vəhşi, qeyri-insani xislətə qarşı türk, Azəbaycan insanının sivil varlığına çox saylı misallar çəkmək olar. Unudulmaz Hüseyn Cavidin, Bir qız məktəbində" şeirində Gülbahar azərbaycanlı qızcığazın müəlliminin, ən çox sevdiyin kimlərdir?", - sorğusuna "Allah, peyğəmbər, atam, anam, müəlliməm, bir də bütün insanlar", -cavabını verməsi fərqin böyüklüyünü tamlığı ilə ortaya qoyur.

Son 30 ilin acı həqiqətləri göstərdi ki, artıq bıçaq sümüyə dayanmışdır. Danışmaqla İblisi, Şeytanı haqq yoluna qaytarmaq olarmı? Əgər belə olsaydı, məlun Şeytan uca Xaliqin sözündən çıxardımı?!

Odur ki, bir çarə, bir yol qalırdı. İblisin başını əzmək! Bu son dərəcə çətin, amma olduqca şərəfli, müqəddəs bir vəzifə, hesab edirəm ki, bizim nəslin boynuna düşən Tarixin bir lütfüdür!

27 sentyabrda erməni təcavüzünə cavab olaraq, nəhayət, 30 illik intizardan, 26 illik atəşkəsdən sonra elliklə müharibəyə, azadlıq savaşına qoşulmağımız, ötən illərdə baş verənlər barədə geniş danışmayacağam. Daha çox 44 günlük müharibənin həqiqətləri haqqında fikir və düşüncələrimi bölüşmək istəyirəm. Müharibənin dərsləri, ilkin nəticələri barədə danışmaqdan öncə həm mifoloji düşüncəmizdə, həm də klassik yazılı ədəbiyyatımızda (hürufilərdə olduğu kimi) rəqəmlərin müqəddəsliyi haqqında çox deyilibdir. 40 rəqəminin çətinliyi, ağırlığı ehtiva etməsi sirr deyildir. 40-dan çıxmaq qurtuluşdur, qələbədir! Sevinirəm ki, 44 günlük Vətən müharibəmiz bizə, ölkəmizə çoxdan gözlədiyimiz arzularımızı qaytardı, qurtuluşu təmin etdi. 44 günlük müharibədə bizə qələbə qazandıran Xilaskar kimdir, yaxud kimlərdir? Elə bilirəm ki, hamı Onları yaxşı tanıyır. Müharibənin qəhrəmanları çoxdur. Hesab edirəm ki, hamı mənimlə razılaşar ki, 44 günlük Vətən müharibəsinin Baş qəhrəmanı ölkə Prezidenti, Ali Baş Komandan, Milli Lider, Azərbaycanın, eləcə də türk dünyasının görkəmli dövlət və siyasət adamı İLHAM HEYDƏR OĞLU ƏLİYEVDİR! Bu haqda, Azərbaycan Prezidentinin uğurlu fəaliyyəti, çevik siyasi addımları barədə hələ çox danışılacaqdır. Dünya güclərı qarşısında duruş gətirmək, dünyanı bürüyən erməni yalanlarına təmkinlə, həm də tutarlı arqumentlərlə cavab vermək, qarşı tərəfi hərtərəfli biliyi, analitik təhlili, natiqlik məharəti ilə heyrətdə qoyması, əslində susdura bilmək bacarığı, silahlı qüvvələri, ordunu yüksək döyüş hazırlığına gətirməsi, döyüş ruhunu qaldırması, müharibənin gedişində dəmir intizam yaratmağa nail olması, Xalqın bütün təbəqələrini öz ətrafında yumruq kimi birləşdirməsi düşünürəm ki, təkcə möhtərəm Prezidentimizin uğuru olmayıb bütövlükdə Azərbaycanımızın, eləcə də Türk dünyasının tarixi uğuru sayılmalıdır. Dünya Prezident İLHAM ƏLİYEVİN şəxsində, simasında Azərbaycanı sanki yenidən tanıdı, ermənilərin, havadarlarının ölkəmiz, xalqımız üzərinə çəkdiyi yalan, böhtan pərdəsini gördü, inandı. Ali Baş Komandanımız, Prezidentimiz bir çoxlarına hərb, siyasət və dövlətçilik dərsi keçdi, müsahibələrilə bunu bir daha təsdiq edə bildi. O dərslər hələ çox davam edəcəkdir! Odur ki, Vətən müharibəsində əldə etdiyimiz uğurların ən böyük səbəbkarı, hərbi, siyasi müstəvidə döyüşlərin BAŞ QƏHRƏMANI PREZİDENT İLHAM HEYDƏR OĞLU ƏLİYEVLƏ bütün Azərbaycan sonsuz qürur duyur, fəxr edir! 44 günlük müharibənin əsas QƏHRƏMANLARI sırasında Azərbaycan igidlərinin yeni tarix yazmasını xüsusi qeyd etməliyəm. Əyilmiş qəddimizi, zədələnmiş qürurumuzu əldə silah olaraq yüksəklərə qaldıran SƏN oldun, SSZİZ AZSSRBAYCAN SSSGSSRİ! Şəhidlərimiz, qazilərimiz çoxdur. Vətənə "Ana" - deyən hər birimiz bilməliyik ki, müqəddəs qanlarıyla Vətən torpaqlarını laləzar edən bu igidlər Anamız uğrunda şəhidlik, qazilik zirvəsinə ucalmışlar. Onlara həmişə bu ucalıqdan baxmalı , başımızın tacı saymalıyıq! 44 günlük Vətən müharibəsinin ən əsas dərslərindən, ilkin nəticələrindən biri də bizi möhtəşəm tarixi qələbəyə aparan bütün dünyaya görk, nümunə olan MİLLİ BİRLİK, MİLLİ HƏMRƏYLİYİMİZDİR! Müharibənin gedişində nəyin şahidi olduq? Uşaqdan böyüyə hamı saatlarla durduğu yerdən tərpənmir, şəhidinin gəlişini intizarla, həm də sonsuz qürurla gözləyir, şəhid balasını son mənzilə ehtiramla, coşqu ilə yola salırdı. "Qarabağ Azərbaycandır!", "Şəhidlər ölməz, Vətən bölünməz!" sədaları hər birimizi Vətən uğrunda, Qarabağ uğrunda müqəddəs savaşa çağırırdı... Müharibə bizə həqiqi dostlarımızı, qardaşlarımızı, həmçinin bədxahlarımızı bir daha yaxından tanıtdırdı. Müharibə ULU ÖNDƏRİN uzaqgörənliklə söylədiyi "Bir millət, iki dövlət" müdrik kəlamının real həyati gücünü göstərdi, qardaş Türkiyənin bütün varlığıyla can Azərbaycanın yanında olduğunu sübut etdi! Bütün bunlardan sevinməmək, qürur duymamaq olurmu?! Bu yerdə ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN hər zaman canlı olan müdrik deyimlərini təkrar etməklə bu qısa qeydlərimi bitirmək istəyirəm: "MƏN HƏMİŞƏ FƏXR ETMİŞƏM BU GÜN DƏ



FƏXR EDİRƏM Kİ, MƏN AZƏRBAYCANLIYAM!"

***Yədullah** Ağazadə*
***Lənkəran Dövlət Universitetinin professoru,***